Azərbaycan Respublikası
Nazirlər Kabinetinin 2025-ci il
“ 8 ” may tarixli
151 nömrəli Qərarı ilə
**təsdiq edilmişdir.**

## Helikopter meydançalarının layihələndirilməsinə, tikintisinə və texniki göstəricilərinə dair digər

## TƏLƏBLƏR

### 1. Ümumi müddəalar

1.1. Bu Tələblər “Aviasiya haqqında” Azərbaycan Respublikası Qanununun (bundan sonra - Qanun) 14.2-ci maddəsinə uyğun olaraq hazırlanmışdır və helikopter meydançalarının layihələndirilməsinə, tikintisinə və texniki göstəricilərinə dair digər tələbləri müəyyən edir.

1.2. Bu Tələblərlə tənzimlənməyən məsələlər Qanuna, həmçinin Azərbaycan Respublikasının Şəhərsalma və Tikinti Məcəlləsinə, “Beynəlxalq Mülki Aviasiya haqqında” 1944-cü il 7 dekabr tarixli Konvensiyaya (bundan sonra – Konvensiya) və Konvensiyaya 14 nömrəli Əlavə – “Aerodromlar” (Cild II) (bundan sonra – Konvensiyaya 14 nömrəli Əlavə) ilə müəyyən edilmiş Beynəlxalq Mülki Aviasiya Təşkilatının beynəlxalq standartlarına və tövsiyə olunan təcrübəsinə, “Doc 9137 7-ci hissə, hava limanının fövqəladə vəziyyətinin planlaşdırılması” və ya “Doc 9261, dənizdə qurulan helikopter meydançasının təlimatı” sənədlərinə uyğun olaraq həyata keçirilir.

1.3. Helikopter meydançalarının layihələndirilməsi, tikintisi və texniki göstəriciləri Konvensiyaya 14 nömrəli Əlavənin, “Doc 9137 7-ci hissə, hava limanının fövqəladə vəziyyətinin planlaşdırılması” və ya “Doc 9261, dənizdə qurulan helikopter meydançasının təlimatı” sənədlərinin, o cümlədən şəhərsalma və tikintiyə dair normativ sənədlərin tələblərinə uyğun olmalıdır.

1.4. Helikopter meydançasının layihələndirilməsində və tikintisində bu Tələblərlə yanaşı aviasiya sahəsində digər milli və beynəlxalq qanunvericiliyin müddəalarına əməl edilməlidir.

### 2. Əsas anlayışlar

2.1. Bu Tələblərdə istifadə olunan əsas anlayışlar aşağıdakı mənaları ifadə edir:

2.1.1. **sifarişçi** – helikopter meydançalarının tikintisini (inşasını, cari və əsaslı təmirini, yenidən qurulmasını, bərpasını) və ya sökülməsini, mühəndis-axtarış işlərinin yerinə yetirilməsini və helikopter meydançalarının layihələndirilməsini sifariş edən dövlət orqanları, bələdiyyələr, eləcə də fiziki və ya hüquqi şəxslər;

2.1.2. **layihəçi** – sifarişçi ilə bağlanılmış müqaviləyə əsasən ərazi planlaşdırılması sənədlərinin, helikopter meydançalarının layihəsini hazırlayan fiziki və ya hüquqi şəxs;

2.1.3. **helikopter meydançasının istismarçısı (bundan sonra – istismarçı)** – bir və ya bir neçə helikopter meydançasını istismar edən və ya belə xidməti təklif edən fiziki və ya hüquqi şəxs.

2.2. Bu Tələblərdə istifadə olunan digər anlayışlar Qanun və Azərbaycan Respublikasının digər normativ hüquqi aktları, Konvensiyaya 14 nömrəli Əlavə, “Doc 9137 7-ci hissə, hava limanının fövqəladə vəziyyətinin planlaşdırılması” və ya “Doc 9261, dənizdə qurulan helikopter meydançasının təlimatı” sənədləri ilə müəyyən edilmiş mənaları ifadə edir.

## 3. Tikintiyə icazə və uyğunluq tələbləri

3.1. Helikopter meydançalarının inşası və yenidən qurulması ilə bağlı layihələr Beynəlxalq Mülki Aviasiya Təşkilatının beynəlxalq standartlarına və tövsiyə olunan təcrübəsinə uyğun olmalıdır.

3.2. Helikopter meydançalarının tikintisi üçün sifarişçi tərəfindən tikintiyə icazə və tikinti obyektinin istismarına icazə alınması Azərbaycan Respublikası Şəhərsalma və Tikinti Məcəlləsinin tələblərinə uyğun olaraq həyata keçirilir.

3.3. Tikintisi nəzərdə tutulan helikopter meydançasının tikinti layihəsi ilə bağlı Azərbaycan Respublikası Şəhərsalma və Tikinti Məcəlləsinin 75.5.2-ci maddəsinin tələblərinə uyğun olaraq göndərilmiş sorğuya əsasən mülki aviasiyaya münasibətdə Azərbaycan Respublikası Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin tabeliyində Dövlət Mülki Aviasiya Agentliyi, dövlət aviasiyasına münasibətdə Azərbaycan Respublikasının Müdafiə Nazirliyi (bundan sonra – aidiyyəti üzrə qurum) tərəfindən rəy verilir.

3.4. Tikintisi başa çatmış helikopter meydançasının istismara yararlılıq və təhlükəsizlik tələblərinə uyğun olaraq sertifikatlaşdırılması aidiyyəti üzrə qurum tərəfindən həyata keçirilməlidir.

## 4. Helikopter meydançaları üçün yerləşmə yerinin müəyyənləşdirilməsi və digər tələblər

4.1. Helikopter meydançalarının layihələndirilməsi və tikilməsi üçün yer müəyyənləşdirilərkən həmin meydançanın inkişaf perspektivləri də nəzərə alınmaqla istismarçı tərəfindən kompleks qiymətləndirmə aparılmalıdır.

4.2. Helikopter meydançalarının axtarış-xilasetmə, yanğınsöndürmə və təcili tibbi yardım xidmətləri ilə təmin olunmasının daha əlçatan olması məqsədilə ən səmərəli yollar, giriş-çıxış nöqtələri seçilməli və helikopter meydançası qeyd olunan xidmətlərə daha yaxın məkanda layihələndirilməlidir.

4.3. Helikopter meydançalarının layihələndirilməsi zamanı ərazinin topoqrafik xüsusiyyətləri, uçuşların təhlükəsizliyinə təhdid yarada biləcək bütün təbii (sel, daşqın, güclü küləklər və s.) və antropogen (yaxınlıqdakı zavodlar, partlayış təhlükəsi olan hərbi obyektlər və s.) təsirlər nəzərə alınmalıdır.

4.4. Layihələndirmə zamanı Konvensiyaya 14 nömrəli Əlavənin 4-1-ci və 4-2-ci cədvəllərindəki səthlərin ölçülərinə dair uyğunluğunun təsviri təmin edilməlidir.

4.5. Konvensiyaya 14 nömrəli Əlavənin 4-1-ci və 4-2-ci cədvəllərindəki səthlərin ölçülərinə dair uyğunluğu ilə bağlı tələbləri pozan obyektlər həmin obyektin sahibi tərəfindən (helikopter meydançası ərazisində olduqda isə istismarçı tərəfindən) Konvensiyaya 14 nömrəli Əlavəyə, həmçinin Beynəlxalq Mülki Aviasiya Təşkilatının digər beynəlxalq standartlarına və tövsiyə olunan təcrübəsinə uyğun olaraq işarələnməli və işıqlandırılmalıdır.

4.6. Helikopter meydançalarına icazəsiz giriş və çıxışın məhdudlaşdırılması, həmçinin helikopter meydançası ərazisinə vəhşi təbiət ünsürlərinin daxil olmasının qarşısının alınması üçün istismarçı tərəfindən perimetr boyunca hasarlanmalı və ya fiziki maneə (baryer) ilə təmin edilməlidir.

4.7. Sutkanın qaranlıq vaxtı görüntünü yaxşılaşdırmaq üçün fiziki maneə (baryer) və ya hasar perimetr boyunca işıqlandırılmalıdır.

## 5. Helikopter meydançalarının ölçüləri

5.1. Helikopter meydançalarının layihələndirilməsi zamanı Konvensiyaya 14 nömrəli Əlavə və "Doc 9261, Dənizdə qurulan helikopter meydançasının Təlimatı" sənədinin tələblərinə, o cümlədən aşağıdakı digər müddəalara uyğunluq gözlənilməlidir:

5.1.1. helikopter meydançasının ölçüsünün gələcəkdə istismar edilməsi planlaşdırılan ən böyük helikopterin ölçülərinə uyğunluğu;

5.1.2. maneələrdən azad və təhlükəsiz uçuş əməliyyatları aparmaq üçün tələb olunan təhlükəsizlik zonalarının ölçüləri;

5.1.3. meydançalarda vizual aeronaviqasiya vasitələri;

5.1.4. meydançaların səth örtüyünə qoyulan tələblər.

## 6. Ətraf mühitə təsirlərin azaldılması

6.1. İstismarçı tərəfindən helikopter meydançalarının ətraf mühitə mənfi təsirlərini azaltmaq üçün Konvensiyaya 16 nömrəli Əlavə, həmçinin Beynəlxalq Mülki Aviasiya Təşkilatının digər beynəlxalq standartlarına və tövsiyə olunan təcrübəsinə və milli qanunvericiliyə əsasən nəzərdə tutulmuş müvafiq tədbirlər görülməli və ətraf mühitə mümkün təsirlərin kompleks qiymətləndirilməsi aparılmalıdır.

6.2. İstismarçı tərəfindən ətraf mühitə təsirlərin qiymətləndirilməsinin nəticəsinə əsasən təsirlərin azaldılması üzrə fəaliyyət planı hazırlanmalı və qabaqlayıcı tədbirlər görülməlidir.

## 7. Yekun müddəalar

7.1. Helikopter meydançalarının istismarçıları tərəfindən beynəlxalq tələblərə uyğun olaraq, fövqəladə hallar üçün fəaliyyət planı tərtib edilir, xilasetmə və yanğınsöndürmə işlərinin təşkil edilməsi üçün tədbirlər görülür.

7.2. Bu Tələblərdə nəzərdə tutulan tələblərin (tikintiyə icazə və tikinti obyektinin istismarına icazə ilə bağlı tələblər istisna olmaqla) yerinə yetirilməsinə nəzarəti aidiyyəti üzrə qurum həyata keçirir.